# Qəbələdə XIII Dünya Skaut Gənclər Forumu keçirilib

*Ölkəmizdə dövlət gənclər siyasətinin əsas istiqamətlərindən biri gənclərin beynəlxalq əməkdaşlıq əlaqələrinin qurulması və inkişaf etdirilməsidir. Bu sahədə aparılmış işlərin nəticəsində Azərbaycanın gənclər təşkilatları 30-dan çox beynəlxalq platformalarda, o cümlədən BMT, Avropa Şurası, Avropa Parlamenti, UNESCO, Türk Şurası, MDB, GUAM, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Gənclər Şurası və digər beynəlxalq qurumlarda təmsil olunurlar.*

*Dünyanın ən böyük gənclər platforması olan Dünya Skaut Hərəkatı Təşkilatında ölkəmizi 1997-ci ildən devizi “Heydər Əliyev yolu ilə daim irəli” olan Azərbaycan Skautlar Assosiasiyası təmsil edir.*



XIII Dünya Skaut Gənclər Forumu iştirakçıların sayına və təmsil olunan ölkələrin müxtəlifliyinə görə skaut hərəkatı tarixinin ən böyük toplantısıdır. Gənclər və İdman Nazirliyinin dəstəyi, Dünya Skaut Hərəkatı Təşkilatının və Azərbaycan Skautlar Assosiasiyasının təşkilatçılığı ilə keçirilən forumda 133 ölkədən 320 gənc iştirak edib.

“Qafqaz Resorte” otelində keçirilən forumun açılış mərasimində Dünya Skaut Hərəkatı Təşkilatının icraedici orqanı olan Dünya Skaut Komitəsinin sədri Joao Armando Qonsalves çıxış edərək təşkilat barədə məlumat verib. O, çıxışında Dünya Skaut Hərəkatı Təşkilatının dünyanın 224 ölkəsi və regionunda fəaliyyət göstərdiyini və 40 milyon üzvü öz ətrafında birləşdirdiyini bildirib. Qeyd edib ki, 1907-ci ildə yaradılan Skaut hərəkatının məqsədi gənclərin özlərini şəxsiyyət kimi formalaşmasına və cəmiyyətdə konstruktiv rol oynamasına, onların ən yaxşı dünyanın qurulması işində iştirakına kömək göstərməkdir.

Sonra Dünya Skaut Gənclər Forumunun sədri Jeremi Apert, Dünya Skaut Hərəkatı Təşkilatının baş katibi Əhməd Ələndəvi çıxış ediblər. Bildirilib ki, “Arzula, inan və hərəkət et” devizi altında keçirilən forum 18-26 yaşlı skautlar arasında ünsiyyətin qurulması və gənc liderlərin ideyalarının mübadiləsi platformasıdır. Bu forum iştirakçıların sayına və təmsil olunan ölkələrin müxtəlifliyinə görə skaut hərəkatı tarixinin ən böyük toplantısıdır. Sonuncu forum Sloveniyada 95 ölkədən olan skautların iştirakı ilə keçirilib.

Forumda bütün iştirakçıların sosial fəaliyyətini və cəmiyyətin inkişafında onların uğurlarını göstərən, fərdi layihələr və maraqlı təqdimatlar olub. Avqustun 10-da başa çatan tədbirdə dünyada baş verən proseslərə (ekoloji, sosial və digər sahələrdəki problemlər) dair müxtəlif mövzular üzrə müzakirələr aparılıb.

Forumdan sonra gənc liderlərin iştirakı ilə avqustun 14-dən 18-dək Bakı Konqres Mərkəzində 41-ci Dünya Skaut Konfransının keçirilməsi nəzərdə tutulub.

✍ **Varis YAQUBOV,**
**“Qəbələ”.**

# Kölgə teatrının premyerası olmuşdur

Bu günlərdə Qəbələ regional “ASAN xidmət” Mərkəzindəki könüllülərin iştirakı ilə Azər Həsənovun quruluş verdiyi “Gizli məktub” kölgə tamaşasının premyerası olmuşdur. Qəbələ Mədəniyyət Mərkəzində təqdim edilən əsərin mövzusu vətənpərvərliyə, torpaq uğrunda mübarizə aparan igid əsgərlərimizə həsr olunmuşdur.



Tamaşanın hazırlanmasında məqsəd klassik teatr növü olan kölgə teatr janrını müasir üslubda, yeniliklərlə birgə gənclərə göstərmək, onları teatr sənətinin bu sahəsi ilə tanış etməkdir.

“Mədəniyyət Carçısı” layihəsi çərçivəsində Qəbələ regional “ASAN xidmət” Mərkəzindəki könüllülərin böyük zəhməti və uzunmüddətli məşqləri sayəsində səhnələşdirilən kölgə tamaşası teatr həvəskarları tərəfindən maraqla qarşılanmışdır.

✍ **Mələkxanım QİSMƏTLİ.**

# Turizm sahəsində əməkdaşlıq üzrə seminar

Çin Xalq Respublikasının Urumçi şəhərində iyulun 5-dən 18-dək İpək yolu ölkələri arasında turizm sahəsində iqtisadi əməkdaşlıq üzrə seminar təşkil edilib. Seminarda Qəbələ Turizm İnformasiya Mərkəzinin direktoru Anar Məhərrəmov da iştirak edib.

Treninqlərdə ÇXR -nın turizm sahəsindəki təcrübəsi nəzəri və praktiki cəhətdən seminar iştirakçıların diqqətinə çatdırılıb, onların Şanxay və Xancjou şəhərlərinə turları təşkil edilib.

İyulun 17-də ölkəmizin təmsilçiləri tərəfindən Azərbaycanın turizm potensialını əks etdirən videoçarxın və milli şirniyyat nümunələrinin təqdimatı olmuşdur.

Seminarda Anar Məhərrəmov Azərbaycanın zəngin turizm potensialı, ipək yolu ölkələri arasında özünəməxsus yeri, Azərbaycan və Çin arasında mədəni əməkdaşlığın inkişafı haqqında məlumat verib.

Sonda seminar iştirakçılarına sertifikatlar təqdim edilib.

**“Qəbələ”**

# Zəngin təəssürat yaradıb

*İyulun 24-dən 30-dək Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM), UNESCO, “Erasmus+”, “ALADDİN layihəsi” və Azərbaycanın Gənc Dostları Klubunun təşkilatçılığı ilə V Beynəlxalq multikulturalizm yay məktəbi təşkil olunmuşdur. Beynəlxalq multikulturalizm qış və yay məktəbləri layihəsi BBMM-in “Azərbaycan multikulturalizmi fənninin xaricdə və ölkə universitetlərində tədrisi” layihəsinin davamıdır. Tədris layihəsi çərçivəsində hazırda dünyanın 15, Azərbaycanın 38 nüfuzlu ali təhsil ocağında Azərbaycan multikulturalizmini öyrənən tələbələr üçün təşkil olunan qış və yay məktəblərinin məqsədi həmin gənclərin nəzəri şəkildə öyrəndikləri multikultural və tolerant dəyərlərin qorunub yaşandığı ölkəmizdə öz gözləri ilə görüb şahid olmalarına şərait yaratmaqdır. Yay məktəbinin Bakı şəhəri ilə yanaşı, İsmayıllı, Qəbələ, Şəki, və Qax rayonlarını da əhatə edib. İştirakçıların bölgələrə səfərləri çərçivəsində Azərbaycanda yaşayan müxtəlif dini və etnik icmaların rəhbərləri, dövlət və din xadimləri ilə görüşləri təşkil olunub.*

V Beynəlxalq multikulturalizm yay məktəbinin iştirakçıları- 26 ölkənin universitetlərində təhsil alan 60 tələbə iyulun 27-də Qəbələyə gələrək, rayonunun görməli yerlərini gəziblər. Yay məktəbinin iştirakçılarına Qəbələ ilə tanışlıq zamanı rayonun qədim tarixi, yerli əhalinin məşğuliyyəti, sosial-iqtisadi inkişafı istiqamətində görülən işlər, uğurlar barədə məlumat verilib. Bildirilib ki, 2500 ildən



çox yaşı olan qədim Qəbələ şəhəri 900 il ərzində Qafqaz Albaniyasının paytaxtı olub.

Nic qəsəbəsindəki “Çotari” Alban-Udi kilsəsi ilə tanışlıq yay məktəbi iştirakçılarının ürəyincə olub. Diqqətə çatdırılıb ki, Qəbələ rayonu Azərbaycanın inkişaf etmiş turizm bölgələrindəndir. Rayon ərazisində orijinal xüsusiyyətlərə malik qədim tarix-memarlıq abidələri çoxdur. “Çotari” Alban-Udi kilsəsi rayona gələn yerli və xarici turistlərin ən çox üz tutduqları tarixi yerlərdən biridir və memarlıq abidəsi kimi dövlət tərəfindən qorunur.

Sonra tələbələr “Tufandağ” Qış-Yay Turizm İstirahət Kompleksi ilə tanış oldular. Onlar kanat yolu ilə dağların zirvəsinə qalxaraq oradan Qəbələ şəhərini, ətrafdakı çayları, meşələri, gözəl mənzərəni seyr edib, xatirə şəkli çəkdiriblər.

Daha sonra yay məktəbinin iştirakçıları üçün rayonun görməli yerlərinə gəzinti təşkil edilib.

Əsrarəngiz təbiəti olan Qəbələ rayonunun tarixi məkanları ilə tanışlıq yay məktəbi iştirakçılarında zəngin təəssürat yaradıb.

✍ **Anar RÜSTƏMLİ,**
**rayon MKS-nin direktoru.**

## *Sadə peşə adamları*

# İşin avand olsun



Hər bir avtomobil sahibi istəyir ki, onun avtomobili saz və səliqəli olsun. Məhz buna görə də o, hər zaman yaxşı və bacarıqlı ustanın sorağında olur. Rayonumuzda seçilib-tanınan avtomobil ustaları çoxdur.

Onlardan biri də təvazökarlığı ilə seçilən, öz işini yaxşı bilən Fəqan Vahabovdur.

Fəqan karbürator ustasıdır. Öz peşəsinin vurğunu olan bu gənc 1979-cu ildə Ağdaşda dünyaya gəlib. O, bacarıqlı usta Eldəniz Məmmədovdan bu gözəl peşənin incəliklərini öyrənmişdir. Artıq 11 ildir ki, Fəqan Qəbələ çörəyi yeyir və rayonun avtomobil həvəskarlarına ləyaqətlə xidmət edir. Bacarığına, səmimi rəftarına görə zəhməthaqqından əlavə o, avtomobil sahiblərindən çoxlu “sağ ol”lar da alır. Ona görə də qida şəhərciyinin qarşısındakı emalatxanasında həmişə qələbəlikdir.

Qolun qüvvətli, işin avand olsun, Fəqan!

✍ **Emin BARATOĞLU,**
**“Qəbələ”nin müxbir postunun rəhbəri, AJB-nin üzvü.**